1_Layout 1 28.10.2022 9:41 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 21 (635)

31 oktyabr 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİ SÜLH VƏ SABİTLİK AMİLİDİR

**“Azərbaycan” qəzetinin müxbiri Zöhrə Fərəcovanın müəllifi olduğu “Azərbaycan-Türkiyə birliyi sülh və sabitlik amilidir” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**



Qəhrəman Azərbaycan Ordusunun otuz ilə yaxın davam edən qəsbkar ermənilərin işğalına son qoyduğu, azadlığına qovuşmuş ərazilərimiz dirçəlir. Vandalların xarabalığa çevirdikləri abad yurdlarımızda dövlətimiz sürətlə genişmiqyaslı tikinti-quruculuq, bərpa işləri həyata keçirir. Hələ görüləcək işlər olduqca çoxdur.

Amma artıq nailiyyətlərimiz də göz önündədir. Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda və digər işğaldan qurtulmuş ərazilərimizdə reallığa çevrilənlər düşmənlərimizi kədərləndirir, dostlarımızı isə sevindirir. Və həmin sevincli hadisələrdən biri də oktyabrın 20-də yaşandı. İşğaldan azad olunmuş ərazilərimizdə ikinci, Şərqi Zəngəzurda isə ilk beynəlxalq hava limanı açıldı. Təməli ötən ilin aprelində qoyulan Zəngilan Beynəlxalq Hava Limanının açılışında hər zaman Azərbaycanın yanında olan Türkiyə Prezidenti iştirak etdi.

### İki qardaş ölkənin birgə bəyanatı

Qardaş ölkələrin dövlət başçıları - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Cəbrayıl şəhərində təkbətək görüş başa çatandan sonra mətbuata birgə bəyanatlarla çıxış etdilər.

Əvvəlcə bəyanatla çıxış edən dövlətimizin başçısı İlham Əliyev oktyabrın 20-nin Qarabağ və Şərqi Zəngəzur üçün çox önəmli bir gün olduğunu diqqətə çatdırdı: “Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür. Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi və məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır”.

Prezident İlham Əliyev qürur duyduğumuz şanlı tarixi günlərimizi yada saldı. Zəngilanın, bir neçə gün sonra Qubadlının erməni işğalına son qoyulmasını və Azərbaycan Ordusunun bir qruplaşmasının Laçın istiqamətində irəliləməyə başlamasını, digər qruplaşmanın isə Şuşaya istiqamət götürməsini, alınmaz qala sayılan Şuşanın noyabrın 8-də erməni işğalından azad edilməsini, Azərbaycan bayrağının qaldırılmasını, ondan sonra Ermənistanın təslim olduğunu qeyd etdi.

Deyirlər ki, dost dar gündə bilinər. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsi bu mənada da Azərbaycan üçün sınaq dövrü oldu. Azərbaycan dövləti, Azərbaycan xalqı çətin, ağır günlərində öz dostlarını və düşmənlərini yenidən tanıdı. Dövlətimizin başçısı İlham Əliyev bəyanatında bildirdi: “Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu, bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük”.

Prezident İlham Əliyev Ermənistanın işğalından azad etdiyimiz ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindən danışdı. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcəyini bildirdi. Dövlətimizin başçısı rəsmi mərasimin keçirildiyi məkanda - Cəbrayıl şəhərində törədilmiş erməni vandallığının miqyasını nəzərə çatdırdı: “Bu gün bizim rəsmi mərasimimiz Cəbrayıl şəhərində keçirildi. Əslində, Cəbrayıl şəhəri yoxdur, çünki bax, burada, oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerlə bir etmişlər. Cəbrayıl şəhərindən bax, bu dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilmişdir. Görün, onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerlə-yeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük”.

### “Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar”

Tarixboyu başqa xalqların ərazilərinə, yurdlarına, evlərinə göz dikən ermənilər unutmuşdular ki, onlardan fərqli olaraq, azərbaycanlılar vətənlərinə bağlıdırlar. Öz yurdlarının xarabalıqlarını belə özgə yurdların saraylarından üstün tuturlar. İndi də dövlət-xalq birliyi ilə erməni vandallarının otuz ilə yaxın at oynatdıqları, uçurub dağıtdıqları, talan etdikləri, viran qoyduqları yurdlarımızı yenidən abad edirlər. Ağalı kəndinin sakinləri kimi digər məcburi köçkünlər də öz dədə-baba yurdlarına qayıdacaqlar. Prezident İlham Əliyev vurğuladı: “Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu bərpa-quruculuq işlərində türk qardaşlarımız bizimlə bir yerdədirlər”.

Dövlətimizin başçısı İlham Əliyev nəzərə çatdırdı ki, Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir: “Bu, sülh, sabitlik amilidir. Ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır”.

Qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanatında bildirdi ki, işğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanı açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir. Rəcəb Tayyib Ərdoğan Azərbaycana qarşı ədalətsiz münasibəti də diqqətə çatdırdı: “İndi sağıma, soluma baxıram, işğal dövründə Cəbrayılı nə hala salmışlar. Mən qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı buraları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədikləri həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər.

Amma bunu görəndən sonra bu barədə danışdıq, bu işləri mütləq ədalət mühakiməsinə verərək, bunların təzminatını tələb etmək lazımdır. Bunların təzminatını istəyərək onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq”.

Türkiyə Prezidenti işğaldan azad edilmiş ərazilərimizdə gedən böyük inkişafdan, körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edildiyindən sevinc və fəxrlə söz açdı. Azərbaycanlıların azad edilən torpaqlara qayıtmağa başlamalarını da məmnunluqla dilə gətirən qardaş ölkənin Prezidenti qeyd etdi ki, Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edib, 30 ildir verilməyən haqqını geri alıb: “Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir”.

Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşdırma proseslərinin bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdə olduğunu söylədi: “Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır”, - dedi.

İki qardaş ölkənin prezidentlərinin bəyanatları bir daha təsdiq etdi ki, Azərbaycan Respublikası və Türkiyə Respublikasının əsas məqsədi regionda sülhün bərqərar olmasıdır. Tarixi torpaqlarını işğaldan azad etmiş Azərbaycan ermənilərin yerlə-yeksan etdikləri yaşayış məntəqələrini yenidən inşa edir. Haqq mübarizəsində olduğu kimi, tikinti-quruculuq işlərində də qardaş Türkiyə ölkəmizin yanındadır.

# Nazir Vilayət Eyvazov Bərdədə vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 26-da və 27-də Bərdə Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daxili işlər naziri əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Daha sonra Rayon Polis Şöbəsinin inzibati binasında Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının 152 sakinini qəbul edən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin operativ həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə öz həllini tapıb.

Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, yerlərdə davamlı olaraq belə qəbulların təşkilinə, dövlət qurumlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ və obyektiv yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Daha sonra general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. Xidmətə qəbulun şərtlərinə uyğun gələn 325 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 78-i Vətən müharibəsi iştirakçısı olub.

**DİN-in Mətbuat xidməti**

2-5_Layout 1 28.10.2022 10:56 Page 1



# Daxili Qoşunların Hərbi Şurasının növbəti iclası keçirilib

**Oktyabrın 15-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın Daxili Qoşunlarda hərbi intizamın, vətəndaş müraciətlərinə baxılmasının və qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyətinə həsr olunmuş növbəti iclası keçirilib.**



İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov bildirib ki, inamla irəliləyən ölkəmizdə müstəqil dövlətçilik, müstəqil xarici və daxili siyasət milli ideologiyanın prioritetləridir. Müxtəlif inkişaf modellərinin tətbiqi, sosial-iqtisadi islahatların həyata keçirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafı, bu əsnada ictimai-siyasi sabitliyin qorunması müasir Azərbaycanın gerçəkliyini təşkil edir.

Həmçinin, qeyd olunub ki, sentyabr ayının 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilib, Daxili Qoşunların şəhid hərbi qulluqçularının əziz xatirəsi anılaraq yad olunub, müvafiq tədbirlər planına əsasən Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığının iştirakı ilə tədbirlər keçirilib.

Sonra Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov bildirib ki, şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmlənməsinə, qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsinə, vətənpərvərlik ruhunun aşılanmasına və kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına yönəldilib. Həmçinin, respublikada baş verən ictimai-siyasi hadisələr, dövlət səviyyəli tədbirlər daim diqqət mərkəzində saxlanılıb.

Məruzəçi qeyd edib ki, Daxili Qoşunların hərbi qulluqçuları hərbi intizamın möhkəmləndirilməsində əldə olunan nailiyyətlərin qorunması, eləcə də mövcud nöqsanların qısa müddətdə aradan qaldırılması üçün əzmlə çalışacaq, qarşıya qoyulan tələb və vəzifələrin yerinə yetirilməsinə daha məsuliyyətlə yanaşacaqlar.




Daha sonra Daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyəti haqqında məruzə ilə çıxış edib.

Bildirilib ki, qoşun təsərrüfatının qış mövsümünə hazırlığı hissə və bölmələrin döyüş hazırlığının fasiləsiz təmin edilməsində, döyüş təlimində, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, şəxsi heyətin maddi-məişət və mədəni tələbatlarının ödənilməsində, kazarma-yaşayış fondunun, texniki və tibbi təyinatlı obyektlərin, silah, texnika və avadanlıqların hazırlığında, maddi-texniki vasitələrin saxlanılmasında, ümumilikdə qoşunların hərtərəfli təminatında prioritet məsələlərdən biridir.

Qışa hazırlıq işlərinin planlı surətdə aparılması məqsədilə, “2022-ci ildə Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbdə, Təlim Mərkəzində və hərbi hissələrdə qoşun təsərrüfatının qış mövsümünə hazırlığı üzrə tədbirlər planı” hazırlanıb, icrası üçün Ali Hərbi Məktəbə və hərbi hissələrə göndərilib. Əmrin və tədbirlər planının tələbləri aidiyyəti vəzifəli şəxslər tərəfindən öyrənilib və tədbirlərin vaxtında yerinə yetirilməsi nəzarətdə saxlanılıb.

Qış mövsümünə keçidlə əlaqədar qoşunların şəxsi heyəti mövsümi geyim əmlakları ilə təmin olunub, ərzaq məhsullarının tədarük edilməsi, normalara uyğun şəxsi heyətə çatdırılması, xörəklərin keyfiyyəti, əsgər yeməkxanalarının və iaşə obyektlərinin sanitar vəziyyəti nəzarətdə saxlanılıb, xidməti heyvanlar arasında baytar-profilaktiki və müalicə tədbirləri həyata keçirilib.

Həmçinin, qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə nəqliyyat vasitələrinin qış mövsümündə fasiləsiz istifadəsini təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilərək, park təsərrüfatlarının hazırlığı yoxlanılıb. Şəxsi heyətlə pis hava şəraitində nəqliyyat vasitələrinin idarə olunması, mövsümi texniki xidmətin keçirilməsi və qış dövründə nəqliyyat vasitələrinin istismarı qaydaları mövzularında məşğələlər keçirilib.

Bundan əlavə, soyuq hava şəraitində şəxsi heyətin sağlamlığının qorunması ilə əlaqədar qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi barədə də məruzə edilib.

Hərbi Şuranın iclasında mövcud vəziyyət, fəaliyyətdə qazanılmış nailiyyətlər, eləcə də yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri, onların aradan qaldırılması istiqamətində görülən işlər barədə bir sıra hərbi hissə komandirlərinin hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov hərbi intizamın möhkəmləndirilməsi və qış mövsümünə hazırlıqla əlaqədar şəxsi heyətin maddi-texniki və tibbi təminatı, sosial-məişət şəraitinin yaxşılaşdırılması, texnikanın istismarı üzrə tədbirlər planında nəzərdə tutulmuş işlərin tam olaraq başa çatdırılması üçün vəzifəli şəxslərə tapşırıqlarını verib.

Əminliklə bildirilib ki, dövlət qayğısına cavab olaraq, Daxili Qoşunların şəxsi heyəti yüksək döyüş hazırlığını bundan sonra da qoruyub saxlayacaq, xüsusən işğaldan azad olunmuş ərazilərdə qarşıya qoyulmuş tapşırıqları əzmlə yerinə yetirəcəklər.

**Mətbuat xidməti**

## DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - DAXİLİ QOŞUNLARIN KOMANDANI “SAHA EXPO-2022” SƏRGİSİNDƏ İŞTİRAK EDİB

Oktyabr ayının 25-dən 28-dək Türkiyə Respublikasının İstanbul şəhərində Türkiyənin və Avropanın ən böyük sənaye birliyi SAHA İstanbul tərəfindən təşkil olunan Müdafiə və Aerokosmik üzrə 3-cü “SAHA EXPO-2022” sərgisi keçirilib.

Türkiyə Respublikasının Prezident Administrasiyasının himayəsində, Xarici İşlər, Daxili İşlər, Milli Müdafiə, Sənaye və Texnologiya, Ticarət nazirliklərinin, Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin, eləcə də müxtəlif hərbi və mülki qurumların dəstəyi ilə 2018-ci ildən etibarən hər iki ildən bir keçirilən sərgidə dünyanın 57 ölkəsindən xeyli sayda hərbi sənaye şirkəti iştirak edib.

Sözügedən sərgidə ölkəmizi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi və digər güc strukturlarının vəzifəli şəxslərindən ibarət böyük nümayəndə heyəti təmsil edib. Daxili İşlər Nazirliyindən Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun rəhbərliyi ilə DQBİ-nin maddi-texniki təminat idarəsinin silahlandırma xidmətinin rəisi polkovnik Sadiq Xəlilov sərgidə iştirak edib.




Sərgi zamanı nümayəndə heyəti təhlükəsizlik və müdafiə sahəsində ixtisaslaşan dünyanın bir çox aparıcı şirkətinin yüksək texnologiyalı məhsullar və xüsusi vasitələr nümayiş etdirilən pavilyonlarına baş çəkib, bir sıra avadanlıqların təqdimat ilə tanış olub.

Həmçinin, Daxili qoşunların komandanı general-leytenant Ş.Məmmədov səfər çərçivəsində Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm Baş Komandanlığının İstanbul vilayəti üzrə Jandarm idarəsinin rəisi general-leytenant Yusuf Kenan Topçu ilə görüşüb.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

## ŞUŞADA ERMƏNİLƏRƏ MƏXSUS KVADROKOPTER MƏHV EDİLİB

Oktyabrın 18-də saat 11:55 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələrinə məxsus kvadrokopter Şuşa şəhəri ətrafında bölmələrimizin mövqeləri üzərində kəşfiyyat məqsədli uçuşlar həyata keçirməyə cəhd göstərib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının “N” saylı hərbi hissəsinin bu ərazidə xidmət aparan hərbi qulluqçularının sayıqlığı nəticəsində vaxtında aşkar edilən kvadrokopter atıcı silahla vurularaq məhv edilib.





Məlumat üçün qeyd edək ki, kvadrokopterin məhv edilməsində fərqlənən cəsur xüsusi təyinatlılarımız leytenant Pərviz Kərimli, çavuşlar Pərvin Qasımlı və Nahid İsmayılov hərbi hissə komandiri tərəfindən mükafatlandırılıblar.

**Mətbuat xidməti**

## DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, oktyabr ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının “Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında” əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahının təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.

Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə əlaqədar olaraq çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması diqqət mərkəzində saxlanılıb. Onların hərbi xidmətə tədricən uyğunlaşmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilib. Bunun üçün mənəvi-psixoloji hazırlıq planları hazırlanıb və hərbi hissə komandiri tərəfindən təsdiq olunub.

Hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Söhbət zamanı onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Həmçinin, hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.







Daha sonra çağırışçılar növbə ilə həkim ekspert-psixonevroloq, həkim-terapevt, baş ordinator-kardioloq, həkim-stomatoloq və ordinator-oftalmoloq tərəfindən müayinə olunublar, ümumi bədən baxışı və sonda profilaktik flüoroqrafik müayinə keçirilib. Müayinələrdən keçən çağırışçılar barədə hərbi-həkim komissiyası tərəfindən rəy verilib və yalnız praktiki sağlam hesab olunanlar hərbi xidmətə qəbul ediliblər. Bununla yanaşı, çağırışçılar əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunublar.

Qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən çağırışçılarla tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu tərəfindən müvafiq məsləhətlər verilib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şərait mövcuddur. Bu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 28.10.2022 9:52 Page 1



*Şəhidlərimiz*

# SON NƏFƏSİNƏDƏK ÜRƏYİ VƏTƏN SEVGİSİ VƏ DÜŞMƏNƏ NİFRƏT HİSSİ İLƏ DÖYÜNDÜ...

Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində xalqımız qanlı-qadalı faciələrlə üzləşib, torpaq itkisinin, məcburi köçkünlüyün sarsıntılarını yaşayıb. Vətənin müdafiəsi və yurdlarımızın düşmən tapdağından azad edilməsi üçün qurbanlar vermişik. 44 günlük Vətən müharibəsi zamanı müzəffər ordumuz erməni işğalçılarını darmadağın etdi. Qalibiyyət salnaməsi xalqımızın qeyrətli və mərd oğullarının adı ilə bağlıdır.

Çavuş Talıblı Asif Arif oğlu Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsi zamanı şəhid olmuş hərbi qulluqçularından biridir. O, 1993-cü ilin aprel ayının 26-da Biləsuvar rayonunun Zəhmətabad kəndində doğulub. Arif Talıbov və Xalidə Talıbova dörd oğul böyüdüblər. Asifdən yaşca böyük olan Vasifdir, Akif və Ziya isə kiçik qardaşlarıdır. Öz halal zəhməti ilə yaşayan, el-oba arasında xeyirxahlığı, mənəvi dəyərlərimizə bağlılığı ilə tanınan Talıbovlar ailəsində Asif vətənsevər və millətsevər ruhda tərbiyə alıb. Zəhmətabaddakı şəhid Dadaş Dadaşov adına əsas orta məktəbdə 9-cu sinfədək oxuyub. Sonra təhsilini Biləsuvar Rayon Peşə Liseyində davam etdirərək geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər peşəsinə yiyələnib. Yeniyetmə yaşından fiziki hazırlığına diqqət yetirib, idmanın futbol növünə maraq göstərərək, məharətli oyunçu olub. Ailə üzvlərinin sözlərinə görə, Asif xarakterсə təmkinli, ünsiyyətdə mehriban, ailəcanlı, zəhmətkeş, çətinə düşdükdə soyuqqanlı davranan gənc idi.

2011-ci ilin aprel ayında Asif müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yerləşən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində mühafizə bölüyündə xidmət edib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2012-ci ilin oktyabr ayında ordu sıralarından tərxis olunub.

Qeyd edim ki, Asif mülki ixtisasa yiyələnsə də, hələ məktəb illərindən onda hərbçi peşəsinə rəğbət yaranıb. Öz seçimini edərək, Daxili Qoşunların tərkibində müddətdən artıq həqiqi hərbi xidmət keçməyi qərarlaşdırıb. Daxili Qoşunların komandanlığına müraciəti müsbət cavablandırılaraq, 2013-cü ilin aprel ayının 16-da müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Onun qoşunların sıralarında hərbi xidməti 17072 saylı hərbi hissədə keçib. Xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunun meteomüşahidəçi-atıcısı, xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun AQS-17 qumbaraatan yarımqrupunun tuşlayıcısı, həmin dəstənin xüsusi həmlə qrupunun yarımqrupunun atıcısı, atıcı-qumbaraatan köməkçisi vəzifələrinə təyin edilərək, əzmkarlığı ilə komandanlığın etimadını doğruldub. Nümunəvi xidməti nəzərə alınaraq, komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb, silahdaşları arasında hörmət qazanıb. Peşəkar hərbi qulluqçu kimi formalaşan Asif döyüş və mənəvi-psixoloji hazırlığı baxımından həmişə fərqlənib.



16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri, əvvəl 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri olmuş, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov bildirdi ki, Asif onun tabeliyində xidmət edib, xüsusi təyinatlıya xas zəruri keyfiyyətlərə malik idi, icraçılığı, nizam-intizamı, təlimlərdə çalışqanlığı, verilmiş tapşırıqları yerinə yetirərkən ayıq-sayıqlığı, yoldaşlarına qayğısı nəzərəçarpan cəhətləri kimi yadda qalıb.

Polkovnik-leytenant Z.Rəhimovun dediyinə görə, Asif Vətən müharibəsində şərəfli döyüş yolu keçərək düşmənə qarşı mətinliklə vuruşub. Son nəfəsinədək hərbi anda sadiq qalan döyüşçünü silahdaşları heç vaxt unutmurlar.

İsmayıllı Rayon Polis Şöbəsinin post-patrul xidməti bölüyünün komandirinin müavini, Daxili Qoşunların sabiq hərbi qulluqçusu, Vətən müharibəsi iştirakçısı polis kapitanı Qurban Səfərli məlumat verdi ki, vaxtilə komandiri olduğu qrupun tərkibində xidmət etmiş Asifi 2017-ci ildən tanıyıb. Onun vətənpərvər və qətiyyətli hərbi qulluqçu olduğunu, təhkim edilən silah-sursatın taktiki-texniki xüsusiyyətlərinə bacarıqla yiyələndiyini, peşə hazırlığında seçildiyini dedi. Hərbi hissə daxilində keçirilən çoxnövçülük üzrə idman yarışlarına qatılaraq qabaqcıl yerləri tutub. Hərbi qulluqçunun ictimai qaydanın və təhlükəsizliyin qorunması üzrə bir sıra xüsusi əməliyyatlarda iştirak etdiyini, Göygöl şəhərində post-patrul xidmətinə cəlb olunduğunu söylədi.

Polis kapitanı Q.Səfərli qeyd etdi ki, Vətən müharibəsi zamanı Asifin döyüş yolu sentyabrın 27-də Kəlbəcər istiqamətindən başlayıb: "Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə döyüş tapşırıqlarını yerinə yetirmişik. O, silahdaşları ilə birlikdə 4-cü qrupun tərkibində vuruşub. Murovdağ ərazisində düşmənin bir neçə postunun ələ keçirilməsində cəsurluq göstərib. Sonra Cəbrayıl və Xocavənd rayonlarının ayrı-ayrı yaşayış məntəqələrinin işğaldan azad olunmasına öz döyüşçü töhfəsini verib. Hadrut qəsəbəsi və ətraf yüksəkliklər uğrunda döyüşlərdə düşmənin canlı qüvvəsi, eləcə də texnikasının məhv edilməsində onun rolu az olmayıb. Həmin döyüşlər zamanı Asif erməni snayperinin gülləsinə tuş gələrək şəhid oldu. Onun nəşinin döyüş zonasından təxliyyəsini təmin etmişik".

17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcısı, Vətən müharibəsi iştirakçısı çavuş Samir Qarayev də Asiflə bağlı xatirələrini mənimlə bölüşdü: "İlk tanışlığımız xüsusi vasitələrin tətbiqi dəstəsində olub. Sonra xüsusi təyinatlı dəstəyə eyni gündə keçirilmişik. Yaxşı yoldaş olmaqla yanaşı, hərbi qulluqçu kimi də örnək götürülməli cəhətləri az deyildi. Silahdaşlarının xeyir-şərindən qalmazdı. Heç kəsdən köməyini əsirgəməzdi.

Vətən müharibəsinin ilk günündən ön cəbhəyə göndərilmişik. Murovdağ silsiləsində düşmənin müdafiə mövqelərinin yarılması üçün hücum əməliyyatı olub. O, işğalçılara tutarlı atəş zərbəsi endirən tank əleyhinə qumbaraatan heyəti nəfəri kimi öndə olmağa can atıb, Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində düşmənin bir sıra atəş nöqtələrini avtomat silahından sərrast atəş açaraq susdurub. Hadrutun girişində üstümüzə gələn erməni zirehli texnikasını qumbaraatan mərmisi ilə vurduq, dayanmadı, hərəkəti davam edirdi, orada üç nəfər döyüşçü ön mövqedən irəli gedərək əl qumbaralarını hədəfə atdılar, onlardan biri Asif idi. Atılan əl qumbaralarının təsiri ilə zirehli texnika ağaca çırpılaraq dayandı, içərisində olan heyəti məhv etdik. Bunun ardınca Hadrutun mərkəzindəki hərbi hissəyə həmlə edərək onun yaxınlığında mövqeləndik. Düşmənin bizi atəşə tutduğu hərbi hissənin divarı istiqamətində Asifin kömək etdiyi digər döyüşçünün qumbaraatandan dəqiq atəşi nəticəsində içəri girməyimizə imkan yarandı. Hərbi hissədəki işğalçılar darmadağın olundu. Ümumilikdə, Hadrutda təcavüzkarın bir neçə qrupu tərəfimizdən tələfata uğradılıb. Qəsəbənin ərazisindəki bir təpədə yerləşmişdik, düşməni pusquya salaraq şiddətli atəşə məruz qoyduq. Orada olanda Asif bir neçə metrliyimdə idi. Həmin məqamda onun dediyi sözləri heç vaxt unutmaram: "Samir, qızım Ayan üçün çox darıxmışam, səsini eşitsəm, içimə sakitlik gələcək...". Dedim ki, inşallah, döyüş bitsin, evlə danışarsan. Ancaq o anda dayandığımız mövqeyə düşmən müxtəlif silahlardan atəş açdı. Sağ cinahdan hücuma keçmişdilər. Dörd nəfər döyüşçü həmin cinaha doğru uzanaraq onlara atəş zərbəsi endirdik. Qrup komandirlərimizdən biri yaralandı. Birdən kimsə Asifin də yaralandığını dedi. Sağa baxdım, Asifin yerə yıxıldığını gördüm. Güclü atəş altında ona yaxınlaşa bilmirdim. Əks-hücuma keçərək düşmənin başını əzdikdən sonra şəhid və yaralıların təxliyyəsini təşkil edə bildik. Asifin şəhid olması məni dərindən sarsıtdı. O, oktyabrın 11-də axşamçağı şəhadətə ucalıb".



14 oktyabr 2020-ci ildə Beyləqan Rayon Qeydiyyat Şöbəsi tərəfindən tərtib edilən ölüm haqqında şəhadətnamədə isə Asifin 12 oktyabr 2020-ci ildə Füzuli rayonunda "kəskin qanitirmə, döş qəfəsi orqanlarının çoxsaylı travması, hərbi əməliyyat nəticəsində güllə yarası" səbəbindən şəhid olduğu yazılıb.

Şəhid hərbi qulluqçumuz oktyabrın 13-də Zəhmətabad kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr, 24 dekabr, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş A.Talıblı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Diqqətəlayiq faktdır ki, şəhidin qardaşları Vasif və Ziya da Vətən müharibəsində iştirak edərək döyüş sınağını yaşayıblar. Vasif Daxili Qoşunların sabiq hərbi qulluqçusudur, hazırda Biləsuvar Rayon Polis Şöbəsinin post-patrul xidməti bölüyündə manqa komandiridir. Asifin əmisi oğlu Anar, bibisi oğlu Cəlal da müharibə iştirakçılarıdır.

Zəhmətabad kəndindən 9 nəfər şəhidlik zirvəsinə ucalıb, 5 nəfər sakin ön cəbhədən qazi olaraq qayıdıb. Kənddə Asifin şəkli əks olunan plakat quraşdırılıb. Məzunu olduğu şəhid Dadaş Dadaşov adına əsas orta məktəbdə və şəhid Ənvər Rəhmətov adına tam orta məktəbdə mərhum silahdaşımızın fotostendi yaradılıb, 2A siniflərinə adı verilib. Talıbovlar ailəsinin yaşadığı evdə xatirə guşəsi düzəldilib.

"Qələbə şəhidləri" və "Hüzurunda baş əyirəm, qəhrəman" kitablarında mərhum xüsusi təyinatlımız haqqında məlumatlar öz əksini tapıb. Ayrı-ayrı televiziya kanallarında şəhidin döyüş yolu barədə süjetlər göstərilib.

2016-cı ilin aprel ayının 16-da Asif Aidə xanımla ailə qurub. Qızı Ayanın 5 yaşı var. Doğmalarına Asifin yoxluğu nə qədər ağrı-acı gətirsə də, onun Vətən yolunda həyatını qurban verməsi ailə üçün başucalığı, sonsuz fəxarət duyğusudur.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ŞƏHİD AİLƏLƏRİ İLƏ BAĞLI MƏSƏLƏLƏR HƏR ZAMAN DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILIR

Daxili Qoşunların 16073 saylı hərbi hissəsində xidməti ezamiyyətdə olarkən hərbi hissənin bir neçə hərbi qulluqçusu ilə birlikdə şəhid hərbi qulluqçumuz çavuş Xeyrullayev Cəlil Mürvət oğlunun ailəsinə baş çəkdik.

Şəhidin atası Mürvət Xeyrullayev oğlu Cəlil haqqında iftixar hissi ilə danışdı. Bildirdi ki, o, 1989-cu ilin may ayının 16-da Quba rayonunun İkinci Nügədi kəndində doğulub. Ailənin sonbeşiyi olan Cəlilin Cəmil, Tural və Qüdrət adlı üç qardaşı var. Orta təhsilini doğulub boya-başa çatdığı kənd orta məktəbində alıb. Təhsilini tamamladıqdan sonra 2007-ci ilin iyul ayından 2009-cu ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin rabitə bölüyündə müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib.

2012-ci ilin iyul ayından 2018-ci ilin aprel ayınadək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun heyət nəfəri, ikinci 60 mm minaatan komandiri, 60 mm minaatan yarımqrupunun minaatan komandiri, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun ikinci yarımrupunun qumbaraatan köməkçisi vəzifələrində xidmət edib. 2018-ci ilin aprel ayından xidmətini 17072 saylı hərbi hissədə davam etdirib. 2020-ci ilin sentyabr ayınadək həmin hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunun heyət nəfəri və atəş təminatı qrupunun snayper yarımqrupunun heyət nəfəri vəzifələrində xidmət edib. Nümunəvi xidməti ilə komandanlığın etimadını doğruldub.

Mürvət kişi onu da söylədi ki, oğlu xasiyyətcə təmkinli, təvazökar, cəsarətli, böyük-kiçik yeri bilən, heç kimdən öz köməyini əsirgəməyən, doğmalarına qayğı ilə yanaşan və dost-tanış arasında hörmət qazanan gənc olub. Nişanlı idi.



Vaxtilə 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri vəzifəsində xidmət etmiş, hazırda 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov da Cəlil haqqında xatirələrini bölüşdü. Vurğuladı ki, Cəlil məsuliyyətli, qoyulan tapşırıqları vaxtında və düzgün icra etmək qabiliyyətinə malik xüsusi təyinatlı olaraq fiziki və döyüş hazırlığını artırmaq üçün hər zaman öz üzərində çalışan, bacarıqlı hərbi qulluqçu idi. O, hərbi xidməti dövründə əzmkarlığı, özünə qarşı tələbkarlığı ilə fərqlənib, silahdaşlarının hörmətini qazanıb. Təhkim olunan silahların xüsusiyyətlərini mükəmməl bilib, atəş və fiziki hazırlığının təkmilləşdirilməsi üçün daim çalışıb. İdmanın taekvondo növü ilə məşğul olan Cəlil, eyni zamanda, respublika və beynəlxalq əhəmiyyətli tədbirlərdə ictimai qaydanın və təhlükəsizliyin qorunmasına cəlb olunub, ayıq-sayıqlığı ilə yoldaşlarına nümunə olmağı bacarıb.

Cəlilin doğmaları əlavə etdilər ki, şəhidin döyüşçü yoldaşları, eləcə də vaxtilə xidmət etdiyi 16073 saylı hərbi hissənin hərbi qulluqçuları tez-tez ailəyə baş çəkirlər. Cəlilin döyüş yolu barədə məlumatları da ailə məhz onlardan alıb.

Vətən müharibəsi başlayarkən 17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin hərbi qulluqçuları ön cəbhədə ayrı-ayrı qrupların tərkibinə bölünərək müxtəlif istiqamətlərdə döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunublar. Cəlilin döyüş yolu Kəlbəcər, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərindən keçib. Belə ki, sentyabr ayının 27-də Cəlilin də tərkibində olduğu dəstə Murovdağ silsiləsinin "Canavar orta" yüksəkliyi istiqamətindən döyüşlərə qatılıb. Dörd gün bu istiqamətdə vuruşduqdan sonra, dəstənin şəxsi heyəti oktyabrın 1-dən Füzuli-Cəbrayıl istiqamətində döyüşləri davam etdirib. Oktyabr ayının 8-dən Hadrut qəsəbəsi uğrunda aparılan döyüşlərdə iştirak edən Cəlil cəsarəti ilə seçilib, düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib. Daha sonra Füzuli şəhəri istiqamətinə yola düşən hərbi qulluqçumuz oktyabrın 15-də burada gedən şiddətli döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. Oktyabr ayının 16-da cəsur silahdaşımız Quba rayonunun İkinci Nügədi kənd qəbiristanlığında dəfn olunub.





Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 17 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Xeyrullayev Cəlil Mürvət oğlunun 15.10.2020-ci il tarixdə Füzuli rayonunda aparılan hərbi əməliyyatlar zamanı aldığı odlu silah yarasından həlak olduğu yazılıb.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr, 24 dekabr 2020-ci il və 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə C.Xeyrullayev Azərbaycan ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin ailəsinin yaşadığı küçə onun adını daşıyır. Quba şəhərində yaşadığı evin qarşısında şəhidin barelyefi hazırlanır. Evdə xatirə guşəsi düzəldilib.

Qeyd edim ki, müharibədən ötən iki il müddətində həm Daxili İşlər Nazirliyinin rəhbərliyi, həm də Daxili Qoşunların komandanlığı tərəfindən ailəyə hər zaman xüsusi diqqət və qayğı göstərilib və ailə ilə bağlı bütün məsələlər daim nəzarətdə saxlanılır.

Göstərilən diqqət və qayğıdan razı qaldığını söyləyən Xeyrullayevlər ailəsi buna görə dərin minnətdarlığını ifadə etdi.

**kapitan Xədicə Hacızadə**

4_Layout 1 28.10.2022 10:10 Page 1



# DAXİLİ QOŞUNLARIN HƏRBİ QOSPİTALI İNKİŞAF, TƏRƏQQİ YOLUNDA




Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi Qospitalı - 12576 saylı hərbi hissəsi böyük inkişaf yolu keçmiş və bu gün öz potensialı, zəngin təcrübəsi ilə fərqlənir. Hər zaman şəxsi heyətin sağlamlığının etibarlı təminatçısı olan qospital respublikada müasir tibbi avadanlığa və zəngin təcrübəyə malik sağlamlıq mərkəzlərindən biridir, desək, heç də yanılmarıq. Şəxsi heyətin, veteranlarımızın, eləcə də hərbi qulluqçularımızın ailə üzvlərinin sağlamlığının təminatçısına çevrilmiş qospitalda xidmətin təşkili ildən-ilə daha da təkmilləşdirilir.



Hər dəfə bu tibb müəssisəsinə xidməti ezamiyyətim zamanı burada davamlı olaraq abadlıq-quruculuq işlərinin aparılmasının, xidmət sahələrinin fəaliyyətinin təkmilləşdirildiyinin və ələlxüsus, istənilən şöbədə sanitar-gigiyenik qaydalara, göz oxşayan səliqə-sahmana riayət edildiyinin şahidi oluram. Burada çalışan hər bir tibb işçisinin əsas vəzifəsi müalicəyə ehtiyacı olan hərbçilərə tələb olunan səviyyədə tibbi yardım göstərməkdir.





Hərbi hissənin komandiri tibb xidməti polkovniki, əməkdar həkim Şəmsəddin Heydərov il ərzində qospitalda baş verən yeniliklər, gətirilən yeni nəsil müasir aparatlardan söz açaraq, şəxsən bizi bütün şöbələrin fəaliyyəti ilə yaxından tanış etdi. Söhbət əsnasında onun bir komandir kimi tələbkarlıq və qayğıkeşlik prinsiplərinə paralel olaraq riayət etdiyinin şahidi olduq. Onun sözlərinə görə, bu gün qospitalda tibb personalının xəstələrin qayğısına qalması, onlara peşəkar xidmətin göstərilməsi üçün hər bir şərait yaradılıb. Yaradılan rahat şəraitə, qospitalın müasir aparatlarla təmin olunmasına görə Daxili işlər naziri və Daxili işlər nazirinin müavini – daxili qoşunların komandanına dərin minnətdarlığını bildirən hərbi hissə komandiri qospitalın inkişafı naminə hər zaman səylə çalışacaqlarını, tabeliyində olan hərbi həkimlərin istənilən çətin tapşırığın öhdəsindən layiqincə gələcəklərinə əminliyini vurğuladı.

## QOŞUN XİDMƏTİ VƏ HƏRBİ İNTİZAMIN VƏZİYYƏTİNƏ GÖRƏ FƏRQLƏNƏN ŞÖBƏ

2022-ci ilin sentyabr ayında şöbələr arasında qoşun xidməti və hərbi intizamın vəziyyətinə görə birinci yerə layiq görülən fizioterapiya və tibbi bərpa şöbəsi ötən dövr ərzində müsbət nailiyyətlər əldə edib. Şöbə rəisi tibb xidməti mayoru Rəna İlyasova bildirdi ki, günün nizam qaydalarına əsasən hər gün xidməti müşavirədən sonra şöbələrdən ambulator müraciət edən hərbi qulluqçular müayinə olunur və fizioterapevtik prosedurlar təyin olunur. Sonra stasionarda olan xəstələrin həkimlər tərəfindən müayinələri aparılır.

Hazırda şöbədə 28 adda fizioterapevtik aparatın mövcudluğunu qeyd edən tibb xidməti mayoru R.İlyasova əsasən impulslu cərəyan, elektrik, işıq, maqnitterapiya müalicə vasitələrindən istifadə edildiyini nəzərimizə çatdırdı. Bu aparatlar dayaq-hərəkət, sinir sistemlərinin, daxili xroniki və yarımkəskin, bəzi cərrahi, lor və s. xəstəliklərin müalicəsində geniş istifadə olunur. Fizioterapiya üsulunun üstünlüyü ondan ibarətdir ki, müalicə birbaşa problemli nahiyəyə təsir göstərməklə həyata keçirilir.

Şöbədə 1 ordinator, 1 baş tibb bacısı, 7 tibb bacısı xidmət edir. Verilən tapşırıqların icrasında fərqlənən hərbi qulluqçulardan tibb xidməti kapitanı Nailə Mirzəyeva, gizir Səbinə Hüseynova, baş çavuş Röyalə Abbasovanın adlarını xüsusi olaraq vurğulamaq olar. “Xidmətimizin prioriteti hər bir xəstəyə xüsusi diqqət və qayğı ilə yanaşmaqdan ibarətdir. Tabeliyimdə olan həkim və orta tibb işçilərinin intizamı, davamiyyəti, öz işinə vicdanlı münasibəti şöbə rəisi kimi məni ən çox maraqlandıran məsələlərdir. Hər xidməti müşavirədə tabeliyimdə olan personala xidmətimizin önəmini və insan sağlamlığına cavabdehliyimizi, eləcə də qarşımıza qoyulan tapşırıqların həyat əhəmiyyətli olduğunu izah edirəm. Həm mənim üçün, həm də şəxsi heyət üçün sevindirici haldır ki, cari il ərzində üç dəfə ayın şöbəsi adına layiq görülmüşük. Hərbi hissə komandiri tərəfindən bizə göstərilən etimadı hər zaman doğruldaraq, bundan sonra da üzərimizdə səylə çalışacağımıza və gələn illərdə də bu uğuru qoruyub saxlayacağımıza söz verirəm” – deyə şöbə rəisi vurğuladı.

**baş leytenant Nigar Ağayeva**

---

NÜMUNƏVİ XİDMƏT

# VƏZİFƏ BORCLARINI VİCDANLA YERİNƏ YETİRƏN MƏSULİYYƏTLİ SÜRÜCÜ




Daxili Qoşunlarda xidməti, hərbi intizamı və məsuliyyəti ilə seçilən hərbi qulluqçulardan biri 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin avtomobil yarımqrupunun sürücüsü çavuş Samiq Mirzəyevdir. O, 1992-ci il iyunun 15-də Lerik rayonunun Livədirqə kəndində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı kənd məktəbində tamamlayan hərbi qulluqçumuz 2010-2012-ci illərdə Müdafiə Nazirliyinin hərbi hissələrindən birində müddətli həqiqi hərbi xidmət keçib. 2012-2015-ci illərdə Müdafiə Nazirliyinin digər hərbi hissəsinin motoatıcı taqımında manqa komandiri vəzifəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib.

2016-cı ildən Daxili Qoşunların sıralarındadır. Hissə komandanlığının və xidmət yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Vəzifələrini vicdanla, hərbi nizamnamələrin tələblərinə uyğun yerinə yetirdiyinə görə dəfələrlə mükafatlandırılıb. Qarşıya qoyulan tapşırıqların məsuliyyətini dərk edən hərbi qulluqçumuz ona təhkim olunmuş texnikanın xüsusiyyətlərinə yaxşı bələddir, xidməti vəzifələrini düzgün icra edir. İntizamlı və məsuliyyətli sürücüdür. Şəxsi heyətin daşınması zamanı yol hərəkəti qaydalarının pozulmaması üçün sayıqlıq göstərir. Parkdan çıxmazdan əvvəl avtomobilin sazlığını yoxlayır, daxili qaydalara ciddi riayət edir.

Çavuş S.Mirzəyevə bundan sonrakı xidmətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

---

# BACARIQLI VƏ İNTİZAMLI RABİTƏÇİ



Xidməti-döyüş tapşırıqlarının uğurla icrasında rabitəçilərin rolu əvəzolunmazdır. Daxili Qoşunların rabitə sistemi daim müasirləşir və daha da təkmilləşir. Bu sistemin idarə olunmasında peşəkar rabitəçilərimizin rolu böyükdür.

Daxili Qoşunların Ali Hərbi Məktəbinin tədris prosesinin təminatı bölüyünün rabitə taqımının xətt nəzarətçisi, intizamı, nümunəvi xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Saməddin Soltanov bacarıqlı rabitəçilərdən biridir. Ali Hərbi Məktəbin rabitə xidmətinin rəisi kapitan Elşad Mövsümov tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçumuz xidməti vəzifələrinə vicdanlı münasibəti ilə şəxsi heyətə nümunədir.

Əsgər S.Soltanov 2004-cü il martın 12-də Ağcabədi rayonunda anadan olub. Orta təhsilini Ağcabədi rayonundakı 3 saylı tam orta məktəbdə alıb. 2022-ci ilin aprel ayından hərbi xidmətdədir.

25032 saylı hərbi hissədə rabitəçi mütəxəssis ixtisasına yiyələnən hərbi qulluqçumuz Ali Hərbi Məktəbdə xidmətə başladığı ilk gündən funksional vəzifələrinin və verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşıb.

Müvafiq normativ sənədlərdə tələb edilən keyfiyyətdə, fasiləsiz və dayanıqlı rabitə əlaqəsini, rabitə vasitələrinin sazlığını, təmirini, aparatların və istismarda olan rabitə kabellərinin texniki normada olmasını təmin etmək əsgər S.Soltanovun funksional vəzifələridir. O, məxfilik rejiminə və rabitənin təhlükəsizlik tədbirləri üzrə tələblərinə ciddi riayət edir.

**kapitan Şahin Cəfərzadə**

---

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR




Daxili Qoşunların komandanlığının diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan asılıdır.

Ali Hərbi Məktəbin ərzaq xidmətinin rəisi mayor Sabir Əliyev şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları”na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş “Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə”yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissənin komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Daxili Qoşunlarda uzun müddət müxtəlif hərbi hissələrdə xidmət edən mayor S.Əliyev şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri qida rasionuna daxildir. Xüsusilə, qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkil edildiyini bildirdi.

Mayor S.Əliyev görülən işlərdə yeməkxana rəisi baş gizir Faiq Məmmədovun əməyini xüsusilə vurğuladı. Onun qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Ərzaq xidmətinin rəisi qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlarla yanaşı, mülki işçi - aşpazlardan Xavər Əsgərova, Gövhər Qənbərova və Natavan Əmirovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

---

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR -

### Malayziya Türkiyədən “Anka” PUA-ları alacaq



Malayziya Türkiyənin TUSAŞ şirkətindən “Anka” zərbə PUA-larının alınmasına qərar verib. Ordu.az xəbər verir ki, bu barədə Malayziyanın Müdafiə Nazirliyi məlumat yayıb.

Bu çərçivədə Malayziya Müdafiə Nazirliyi ilə TUSAŞ arasında təchizat müqaviləsinin imzalanması gözlənilir.

TUSAŞ uzun müddətdir ki, “Anka” PUA-larının və “Hürjet” təyyarələrinin Malayziyaya ixracı üçün danışıqlar aparır. 2022-ci ilin iyulunda Malayziyanın Baş naziri, 2022-ci ilin avqustunda isə Malayziya Kralı TUSAŞ şirkətinə səfər ediblər.

### Türkiyə ordusuna KN-12 adlı dəyişkən çaplı snayper tüfəngi təhvil verilib

Türkiyənin MKE şirkəti ölkənin Quru Qoşunlarına KN-12 adlı dəyişkən çaplı snayper tüfəngi təhvil verib. Ordu.az xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.



Türkiyə Silahlı Qüvvələri üçün bir ilk olan KN-12 snayper tüfəngi həm 8,59 x 70 mm, həm də 7,62 x 51 mm ölçülü patronlardan istifadə edə bilir. İki patron arasında keçid etmək üçün sadəcə tüfəngin lüləsini dəyişdirmək kifayətdir.

KN-12 1500 metr təsirli məsafəyə malikdir. Təxminən 7 kiloqram ağırlığında olan tüfəng olduqca dəqiqdir.

---

# Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Aqil Nəzərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı mayor Umruz Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı baş gizir Dədəbəy Nəzərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000